# Auditor fəaliyyəti sahəsində risk əsaslı nəzarət qaydaları

Hazırlayanlar:

Auditin hüquqi tənzimlənməsi və
dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimov

Auditin innovativ inkişafı, operativ
tənzimləmə və keyfiyyətin idarə
edilməsi idarəsinin rəisi Q.Əhmədov

**Bakı-2022**

## Mündəricat

1. Ümumi müddəalar.........................................................................3

2. Anlayışlar...................................................................................3

3. Meyarlar......................................................................................4

4. Yüksək risk qrupuna daxil edilməsinin nəticələri...............................5

5. Yüksək risk qrupundan çıxarılması qaydası.......................................5

6. Yüksək risk qrupu reyestrin aparılması qaydası................................5

İstifadə olunmuş ədəbiyyat siyahısı.......................................................5

## 1. Ümumi müddəalar

Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər) 1.5-ci "Müxtəlif risk qruplarına daxil olan auditor təşkilatları və müstəqil auditorlar üçün differensasiya olunmuş (fərqli) nəzarət və monitorinq yanaşmaların tətbiqi" bəndi, həmin konsepsiyasının 1.2-ci "Palatanın tövsiyə etdiyi minimum hədlərdən 0-50%-ə qədər aşağı qiymətlərə yol verən auditorların yüksək risk qrupuna daxil edilməsi və növbəti ildə təkrar nəzarət tədbirlərinin həyata keçirilməsi" bəndi, Azərbaycan Respublikasının Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2.3-cü "Düzgün olmayan auditor rəyi verən auditorların yüksək risk qrupuna daxil edilməsi və nəzarətə cəlb edilməsi mexanizminin işlənib hazırlanması" bəndinə, Auditorlar Palatası sədrinin 2022-ci il 11 fevral tarixli 1/11 nömrəli Sərəncamının 1.1-ci "Auditorlar Palatası üzrə risk əsaslı nəzarət qaydaların hazırlanması və təsdiq olunması" bəndinin icrası məqsədilə hazırlanmışdır.

Bu qaydaların hazırlanmasının məqsədi 3-cü bənddə qeyd olunan meyyarlara cavab verən auditor təşkilatlarının və sərbəst auditorların xüsusi reyestrinin aparılması, auditor xidməti sahəsində kölgə iqtisadiyyatının azaldılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsi, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, xidmət bazarında rəqabət mühitinin formalaşdırılmasından ibarətdir.

## 2. Anlayışlar

Yüksək risk qrupu – auditor təşkilatlarının və sərbəst auditorların xidmət göstərdiyi zaman aşağıda qeyd olunmuş meyarlara cavab verən reyestri:

Dempinq - (ingilis dumping-azalma sözündəndir) – xidmətlərin daxili və xarici bazarda süni surətdə endirilməsi, Palata tərəfindən tövsiyə olunan minimum hədlərdən aşağı, bəzən isə maya dəyərindən aşağı xidmətin göstərilməsidir. Dempinq bazara müdaxilə etmək, orada yer tutmaq, rəqibləri sıxışdırıb çıxarmaq məqsədilə həyata keçirilir.

Haqsız rəqabət - peşə mənsublarının / üzvlərinin bir-biri ilə və işəgötürənlə münasibətlərinə təsir edən aldadıcı və ya başqa şəkildə düzgünlük qaydalarına zidd olan davranışlar və ya peşə fəaliyyətləri.

İşəgötürən - Peşə mənsubu / üzvü ilə yazılı müqavilə bağlamış şəxslər.

Üzvlük haqqı – Palata tərəfindən öz əsasnaməsinə əsasən müəyyən etdiyi illik haqqın ödənilməsi.

Şikayət – Auditorlar Palatasına daxil olunmuş şikayət əsasında aparılmış araşdırma nəticəsində müəyyən edilir.

Keyfiyyətə nəzarət qaydasında monitorinq – qaydalar müstəqil auditorlar və auditor təşkilatları tərəfindən Peşə standartlarının fasiləsiz təhlilindən, qiymətləndirilməsindən ibarət olan və keyfiyyətə nəzarət sisteminin səmərəli fəaliyyəti ilə bağlı tələblərinə riayət olunmasının yoxlanılması.

Plandankənar keyfiyyətə kənar nəzarət monitorinqi – Azərbaycan Respublikasinda Auditor Xidmətinin Keyfiyyətinə Kənar Nəzarət üzrə qaydaların tələbləri ilə nəzərdə tutulmuş hallarda aparılan monitorinq.

## 3. Meyarlar

Yüksək risk qrupuna auditor təşkilatlarının və sərbəst auditorların daxil olunması aşağıda göstərilən meyarlar üzrə həyata keçirilir:

1) Keyfiyyətə nəzarət qaydasında monitorinqin nəticəsinə əsasən. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin apardığı monitorinq zamanı "2" (qeyri-qənaətbəxş) qiyməti aldığı zaman və ya auditor monitorinqə tələb olunan sənədləri təqdim etmədiyi halda.

2) Dempinq və haqsız rəqabət halı yol verdiyi zaman. Auditorlar Palatasında müvafiq struktur bölməsi tərəfindən aparılan araşdırma nəticəsində müəyyən olunmuş və ya Palataya kənar mənbədən daxil olmuş müraciət əsasında və aparılmış araşdırmanın nəticəsinə əsasən.

3) Barəsində əsaslı şikayət olduqda. Palataya rəsmi olaraq kənar mənbədən daxil olunmuş müraciət əsasında aparılmış araşdırma zamanı müəyyən olunmuş hallar.

4) Üzvlük haqqının ödənilməməsi əsasında. Auditorlar Palatası Şurasının müəyyən etdiyi müddət ərzində üzvlük haqqının ödənilməməsi zamanı.

5) Tənbeh tədbiri tətbiq edildiyi halda. Auditorlar Palatası tərəfindən auditor təşkilatına və ya sərbəst auditora verildiyi Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminə əsasən tətbiq edildiyi intizam tədbiri.

6) Auditorlar Palatasının müvafiq struktur bölmələri tərəfindən daxil olmuş təqdimat əsasında.

7) Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında (PL/TMM) qanunvericiliyin pozulması aşkarlandığı halda.

8) Daxili nəzarətə riayət etmədiyi halda. Beynəlxalq Audit Standartların, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin, Auditorların Müstəqillik Qaydalarının və Şirkətin Daxili Nəzarət qaydalarının tələblərinə riayət edilmədiyi halda.

9) Məhkəmə qaydasında auditorun rəyi ləğv edildiyi halda.

10) Auditor rəyi keyfiyyətsiz hesab olunduğu halda.

11) Qanunvericiliyin və Palatanın normativ sənədlərin tələbləri pozulduğu halda.

Yuxarıda göstərilən meyarların 1-nə cavab verən auditor təşkilatları və sərbəst auditorlar Yüksək risk qrupuna daxil edilirlər.

## 4. Yüksək risk qrupuna daxil edilməsinin nəticələri

Yüksək risk qrupuna daxil edilən auditor təşkilatları və sərbəst auditorlar məcburi keyfiyyətə nəzarət üzrə monitorinqin aparılması üçün növbəti ilin plandankənar monitorinq siyahısına daxil edilir.

## 5. Yüksək risk qrupundan çıxarılması qaydası

Yüksək risk qrupuna düşmə səbəbi aradan qaldırıldıqda siyahıdan subyektin adı çıxarılır.

Plandankənar qaydada aparılmış keyfiyyətə nəzarət üzrə monitorinqin nəticəsi "2" (qeyri-qənaətbəxş) qiymətindən yuxarı olduğu halda.

## 6. Yüksək risk qrupu reyestrinin aparılması qaydası

Reyestrin aparılması Palata sədrinin əmri ilə müəyyən edilmiş müvafiq struktur bölməsi tərəfindən həyata keçirilməsi təmin olunur.

## İstifadə edilmiş ədəbiyat siyahısı

1. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu;

2. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu;

3. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;

4. "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respbilkası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarırı;

5. Beynəlxalq Audit Standartları;

6. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi;

7. Auditorların Müstəqillik Qaydaları;

8. Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası (2021-2030-cu illər);

9. KPMG, 2018. “2020-ci ilə qədər Daxili Audit tərəfindən nəzərə alınacaq 20 əsas risk”;

10. Maliyyə Hesabatları üzrə Şurası, Böyük Britaniya, 2014. “Risklərin İdarə Edilməsi, Daxili Nəzarət və Müvafiq Maliyyə və Biznes Hesabatı üzrə Rəhbərlik”.